**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN – GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ: YARANMASI, İNKİŞAFI VƏ PERSPEKTİVLƏRİ

İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Samirə İlham qızı Həbibbəyli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın müxbir üzvü, professor<br>**Musa Cəfər oğlu Qasımlı** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, professor<br>**Elman Xudam oğlu Nəsirov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Kərəm Cahangir oğlu Məmmədov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Zümrüd Eldar qızı Məlikova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | siyasi elmlər doktoru, professor<br>**Ziyafət Ziya qızı Həbibova** |
| Elmi seminarın sədri: | siyasi elmlər doktoru, professor əvəzi<br>**Adil Mirabdulla oğlu Mirabdullayev** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlum olduğu kimi, Azərbaycan yenidən dövlət müstəqilliyini əldə etdikdən sonra qarşıda dayanan əsas vəzifələrdən biri xarici siyasət məsələlərinin tənzimlənməsi olmuşdur. Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətləri, məqsədləri, prinsipləri və başlıca xüsusiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasında və Ümummilli lider Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır. Bu prinsiplər bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək, başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmaq, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdir.

Müstəqilliyinin ilk illərində səriştəsiz rəhbərlik nəticəsində Azərbaycan Respublikasında vəziyyət getdikcə gərginləşməklə bütün sahələrdə böhran daha da dərinləşirdi. Ermənistanın hərbi təcavüzü, hakimiyyət uğrunda mübarizə və iqtisadi tənəzzül, ictimai həyatın bütün sahələrində özbaşınalıq, hərc-mərclik dövlət müstəqilliyinin üzləşdiyi əsas təhdidlər idi. Böhranlı vəziyyət xarici siyasətdə də özünü biruzə verərək digər dövlətlərlə faydalı qarşılıqlı münasibətlərin qurulmasını əngəlləyirdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev dövlət müstəqilliyini xilas etdi. Atəşkəsə nail olundu, sabitlik və əmin-amanlıq bərqərar edildi, həmçinin xarici siyasətin tənzimlənməsi üçün uğurlu addımlar atıldı.

Qonşu dövlətlərlə faydalı qarşılıqlı əlaqələrin qurulmasının təmin olunması strateji əhəmiyyət daşıdığından Gürcüstan ilə qurulan münasibətlərə xüsusi yer verilmiş, Ümummilli lider Heydər Əliyevin xarici siyasət xəttinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin dərindən tədqiqi olduqca əhəmiyyətlidir.

Tədqiqat işinin aktuallığını daha konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- İki dövlət arasındakı münasibətlərin təməllərindən birini ilk növbədə tarixi bağlılıq təşkil edir. Azərbaycan və gürcü xalqlarının minilliklərdən bəri davam edən qonşuluq və dostluq münasibətləri mövcuddur. Bu münasibətlər istər hər iki dövlətin ilk dəfə müstəqillik qazandığı XX əsrin əvvəllərində, istərsə də müstəqilliyin yenidən bərpa edildiyi XX əsrin sonlarından etibarən qorunub saxlanılmış, daha da dərinləşdirilmişdir.Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il martın 8-də Gürcüstana rəsmi səfəri zamanı Azərbaycan və Gürcüstanın böyük tarixi əlaqələrinin olduğunu xüsusu vurğulamış, bu ölkə ilə olan münasibətlərə xüsusi əhəmiyyət verdiyini bu sözlərlə ifadə etmişdir: *"Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var."*[1]
- Azərbaycan və Gürcüstan münasibətlərinin geosiyasi və geoiqtisadi aspektləri olduqca əhəmiyyətlidir. Azərbaycan Gürcüstanın Asiyaya, Gürcüstan isə Azərbaycanın Avropaya açılan qapısıdır.
- Hər iki dövlət uzun illər boyu əvvəlcə çar Rusiyasının, sonrakı illər sovet rejiminin müstəmləkəsi altında olmuş, daha sonra müstəqillik mübarizəsi aparmışlar. SSRİ dövründə məqsədyönlü şəkildə aparılmış inzibati-ərazi bölgüsü, hər iki dövlətdə separatizm ocaqlarının yaranmasına səbəb olmuşdur.
- Azərbaycanın təşəbbüskarı, Gürcüstanın iştirakçısı olduğu bir sıra qlobal enerji və nəqliyyat-kommununikasiya layihələri həyata keçirilməkdədir. Layihələrin həm ölkələrin müstəqilliklərinin möhkəmlənməsində, həm iqtisadiyyatlarının çiçəklənməsində, həm də Cənubi Qafqazın dünya səviyyəsində çəkisinin artmasında müstəsna rolu vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

[1] Əliyev H.Ə., Müstəqilliyimiz əbədidir [46 cilddə] /H.Əliyev. - Bakı: Azərnəşr- c.5 -1998, 500 səh., səh.203

öz çıxışlarının birində həyata keçirilən layihələrin regionun inkişafında oynadığı rolu bu sözlərlə vurğulamışdır: *“Tam aydındır ki, enerji və nəqliyyat layihələri Cənubi Qafqazı transformasiyaya uğradıb, regionun iki ölkəsinə – Gürcüstan və Azərbaycana əlavə maliyyə ehtiyatları əldə etməyə imkan verib, ölkələrimizin beynəlxalq tərəfdaşlar qarşısında əhəmiyyətini artırmağa imkan yaradıb.”*[2]

- Azərbaycan – Gürcüstan mədəni-humanitar əlaqələri olduqca dərin köklərə malikdir. Bu sahədə əməkdaşlıq tarixən qarşılıqlı zənginləşmə əsasında inkişaf etmiş, müasir dövrdə də genişləndirilərək qorunub saxlanmışdır. Hər iki ölkə mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsində maraqlıdır.
- Ölkələr arasındakı münasibətləri şərtləndirən əsas amillər sırasında Gürcüstanda yaşayan azərbaycanlıları və Azərbaycanda yaşayan gürcü mənşəli əhalini göstərmək olar. Müstəqilliyin bərpasından bu yana Azərbaycan dövləti tərəfindən Gürcüstanda yaşayan azərbaycanlıların taleyinə biganə qalınmamış, eyni zamanda vətəndaşları olan gürcü mənşəli əhalinin hərtərəfli təmin olunması, hüquq və azadlıqlarının qorunması üçün lazımi şərait yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu amilə verdiyi önəmi dəfələrlə vurğulamışdır: *“Azərbaycandakı gürcülər və Gürcüstandakı azərbaycanlılar bizim böyük zənginliyimizdir.”*[3]
- Müstəqilliyin bərpasından etibarən Azərbaycan və Gürcüstan bir sıra beynəlxalq və regional qurumlara daxil olmuşlar və bu təsisatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan və

[2]Prezident İlham Əliyev: Gürcüstan və Azərbaycanın birgə enerji və nəqliyyat layihələri Cənubi Qafqazı transformasiyaya uğradıb, 21.05.2021., https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Gurcustan_ve_Azerbaycanin_birge_enerji_ve_neqliyyat_layiheleri_Cenubi_Qafqazi_transformasiyaya_ugradib-1785781

[3] Əliyev İ.H., İnkişaf məqsədimizdir, [104 cilddə] / İ.Əliyev. – Bakı: Azərnəşr – c.61. – 2018. – 400 s., s.219

Gürcüstanın iki müstəqil dövlət olaraq BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar daxilində bir-birinə dəstək verərək birgə işlədiyini xüsusi vurğulamışdır.[4]

- Həm Azərbaycan, həm də Gürcüstan uzun illər işğaldan əziyyət çəkmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə ölkələrin ən böyük problemi olan ərazi bütövlüyünün pozulmasına diqqət çəkmiş, ölkələri bir-birinə yaxınlaşdıran amillər sırasında sadalamışdır: "*Təəssüf ki, Gürcüstan və Azərbaycan ölkələrimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxaran təcavüzkar separatizmə məruz qalmışlar......Ona görə bütün bu problemlər, ən əsası isə, müsbət amillər bizi bir-birimizə daha da yaxınlaşdırır.*"[5]

  İstər ikitərəfli görüşlərdə, istərsə də beynəlxalq platformalarda Azərbaycan daim Gürcüstanın ərazi bütövlüyünü müdafiə etmiş, həm nəzəri, həm də əməli cəhətdən etibarlı və sadiq qonşu olduğunu sübut etmişdir.

  Gürcüstan münaqişənin davam etdiyi 30 il ərzində, 44 günlük vətən müharibəsi dövründə və postmüharibə zamanında rəsmi şəkildə bitərəf mövqeyini qoruyub saxlamağa çalışmış, qonşusu olan hər iki dövlətə qarşı tarazlaşdırılmış bəyanatlar səsləndirmişdir. Müharibədən sonra Gürcüstan vasitəçilik cəhdlərinə əl atmış, bu nöqteyi-nəzərdən müəyyən işlər də görmüşdür.

Bütün bu məsələlərin dərindən və kompleks araşdırılması, qarşılıqlı münasibətlərin inkişafı üçün elmi əsaslandırılmış proqnozların irəli sürülməsi Azərbaycan siyasi elminin qarşısında dayanan başlıca vəzifələrdən olduğundan, problemin tədqiqi aktualdır, elmi və siyasi maraq kəsb edir.

Azərbaycan Respublikası – Gürcüstan münasibətləri tarixi, siyasi-diplomatik münasibətləri, enerji layihələri, iqtisadi-ticarət əlaqələri müxtəlif əsərlərdə işlənilmişdir. Azərbaycan

---

[4] Əliyev İ.H., İnkişaf məqsədimizdir, [104 cilddə] / İ.Əliyev. – Bakı: Azərnəşr – c.61. – 2018. – 400 s., s.218

[5] Əliyev İ.H., İnkişaf məqsədimizdir, [104 cilddə] /İ.Əliyev. - Bakı: Azərnəşr- c.3. -2009, 416 səh., səh.124

Respublikası – Gürcüstan münasibətlərinin yaranmasının və inkişafının əsas istiqamətlərinin öyrənilməsi üçün ən mühüm mənbə ümummilli lider Heydər Əliyevin nitq, çıxış və müsahibələrinin toplandığı çoxcildlik "Müstəqilliyimiz əbədidir" adlı əsəridir. Elmi-nəzəri və siyasi-tarixi nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edən əsərdə həmin dövrün prosesləri hərtərəfli və obyektiv şəkildə təhlil edilmiş, dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi yolu öz əksini tapmış, milli dövlət quruculuğunun prioritet istiqamətləri müəyyənləşdirilmişdir. Əsərdə Azərbaycan Respublikası – Gürcüstan münasibətlərində siyasi-diplomatik, iqtisadi, enerji, ticarət, humanitar və digər sahələrin inkişafı üçün görülən işlər, Azərbaycan Respublikasının qonşu dövlətə münasibətdə məqsəd və vəzifələri, inkişafında oynadığı rolun mahiyyəti ətraflı şəkildə göstərilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxcildlik "İnkişaf – məqsədimizdir" əsəri dissertasiya işinin yazılmasında mühüm mənbə rolunu oynamışdır. Heydər Əliyev tərəfindən əsası qoyulan sabit və tarazlaşdırılmış daxili və xarici siyasəti davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti boyunca həyata keçirdiyi səfərlərin, Azərbaycan Respublikasına gələn xarici dövlət xadimləri və nümayəndə heyətləri ilə görüşlərin, beynəlxalq və regional qurumlar çərçivəsində keçirilən tədbirlərdə iştirakının ətraflı təhlil edildiyi əsər Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərinin dərk edilməsi üçün əsas qaynaqlardandır.

Tədqiq edilən mövzunun ayrı-ayrı tərəflərinin araşdırılmasına Azərbaycan tədqiqatçıları müəyyən maraq göstərmişlər. Onlardan M.Qasımlı, Ə.Həsənov, İ.Hüseynova, E.Əhmədov, H.Babaoğlu, N.Nəsibzadə, Z.Məmmədov, Ş.Rəhmanzadə, C.Arıxov, F.Çıraqov, Z.Şiriyev, R.Quliyev və digərlərinin Azərbaycan Respublikasının xarici siyasətinə və müxtəlif aspektlərinə həsr edilmiş əsərlərində Gürcüstan ilə

münasibətlərin təhlilinə yer verilmişdir.[6] Həmin əsərlərdə Azərbaycanın geostrateji əhəmiyyəti, onun təşəbbüskarı olduğu, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində və şaxələndirilməsində, Cənubi Qafqazın geosiyasi əhəmiyyətinin artmasında müstəsna fayda verən qlobal layihələrin oynadığı rolun müxtəlif tərəfləri, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrində Gürcüstanla olan əməkdaşlığın çəkisi, humanitar sahədə Azərbaycan Respublikası – Gürcüstan münasibətləri araşdırılmışdır.

M.Qasımlının əsərlərində Azərbaycan Respublikasının xarici siyasətinin məqsədləri, başlıca istiqamətləri, eləcə də Gürcüstan ilə qarşılıqlı münasibətlərinin konsepsiya məsələləri təhlil edilmiş, enerji layihələrinin həyara keçirilməsində, iki ölkə arasındakı əməkdaşlığın qurulması və möhkəmləndirilməsində Ulu Öndər Heydər Əliyevin rolu diqqətə çatdırılmışdır.

Dissertasiyanın yazılması zamanı Azərbaycan Milli Elmlər Akademiyasında aparılmış tədqiqatlardan istifadə edilmişdir. AMEA Qafqazşünaslıq İnstitutunun nəşrlərindən V.Ömərov, E.Kəlbizadə, S.Həbibbəyli, N.Məmmədova və K.Salayevin müəllifi olduqları "Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası", M. Qasımlı, V.Ömərov, N.Məmmədova, S.Həbibbəyli və K.Salayevin müəllifi olduqları "Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti", AMEA Bakıxanov adına Tarix İnstitutunun nəşri "Azərbaycan – Gürcüstan münasibətləri tarixi

---

[6] Qasımlı, M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003):[2 hissədə. I hissə] /M.Qasımlı. – Bakı: Mütərcim, – 2015, – 648 səh.; Qasımlı, M. Azərbaycan Parlamentarizmi tarixi / M.Qasımlı, B. Muradova, [2 clddə, II cild], – Bakı: Mütərcim, –2018, – 680 səh.; Həsənov, Ə. Azərbaycanın geosiyasəti/ Ə.Həsənov. – Bakı: Zərdabi LTD MMC, –2015, – 1056 səh.; Hüseynova, İ. Heydər Əliyev və Qafqazda sülh prosesi/ İ.Hüseynova. – Bakı:Çaşıoğlu, –2008, 616 səh.; Əhmədov, E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər/ E.Əhmədov. – Bakı: Letterpress nəşriyyat evi, – 2013.–452 səh.; Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri(1991-2016) (məqalələr toplusu) / –Bakı: Poliart MMC, – 2017. –904 s.; Shiriyev, Z. Azerbaijani – Georgian relations/ Z.Shiriyev, K.Kakachia – Baku: Center for the Strategic Studies, –2013. –117 p. və b.

(XVIII əsr – XXI əsrin əvvəlləri)" əsərlərindən problemin tədqiqi zamanı istifadə edilmişdir. [7]

Dissertasiya işi yazılarkən digər ölkələrin tədqiqatçılarının əsərlərinə də müraciət edilmişdir. Məlum olduğu kimi, hələ XX əsrin sonlarından etibarən Cənubi Qafqaz regionu bir sıra tədqiqatçıların maraq dairəsinə çevirmiş, zaman keçdikcə daha da geniş kontekstdə işlənməyə başlanmışdır. Problem Türkiyə siyasi elminin də diqqətini cəlb etmişdir. Türk alimlərindən A.Aydıngül, A.Asker, A.Y.Şir, M.M.Hekimoğlu, Y.Sarıkaya, M.Çelikpala və başqaları tərəfindən Azərbaycan – Türkiyə – Gürcüstan əməkdaşlığının regional təhlükəsizliyə təsirləri, enerji və nəqliyyat-kommunikasiya layihələri, onların geosiyasi və geoiqtisadi əhəmiyyəti və başqa problemlər araşdırılmışdır.[8] "Gürcüstandaki müsəlman topluluqlar" əsərində Gürüstanda yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyəti, müxtəlif sahələrdə üzləşdikləri problemlər ətrafı təhlil edilmişdir. Mithat Çelikpalanın "Türkiyə və Qafqaz: mürtəce xarici siyasətdən fəal diplomatiyaya" əsərində Cənubi Qafqazdakı proseslər fonunda Türkiyənin siyasi xətti, qlobal enerji layihələrinin dünyada baş verən geosiyasi proseslərə təsirləri təhlil edilmişdir.

Rus tədqiqatçılarından A.Krılov, E.Arxipova, E.Eşba, O.Kuznetsov, ikitərəfli münasibətlərdə sərhəd məsələləri, enerji diplomasiyası, qlobal neft və qaz layihələri, Azərbaycan – Türkiyə – Gürcüstan əməkdaşlığı, 44 günlük müharibə və nəticələri mövzularındakı araşdırmalarından istifadə olunmuşdur. [9]

---

[7]Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası/ V.Ömərov, E.Kəlbizadə, S.Həbibbəyli [və b.] – Bakı: MTM İnnovation MMC, –2019. – 320 s.; Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti / M.Qasımlı, V.Ömərov, N.Məmmədova [və b.] – Bakı: RS Poliqraf MMC, –2019. – 320 s.; Azərbaycan-Gürcüstan münasibətləri tarixi (XVIII əsr-XXI əsrin əvvəlləri) / İ. Bağırova, Ş.Həmidova, S.Əliyeva [və b.] . – Bakı:Şərq-Qərb, – 2013. – 392 s.

[8] Gürcistandaki Müslüman topluluklar: Azınlık hakları, kimlik, siyaset / ed. A.Aydıngül, A.Asker, A.Y.Şir – Ankara: Terazi Yayıncılık, – 2016. – 428 s.; Hekimoğlu, M.M. Bakü – Tiflis – Ceyhan Boru hattı projesinin hukuki boyutları // – Bilig, – 2012. №63, – s.77-92 və b.

[9] Крылов А. Южнокавказский энергетический транзит: проблемы и перспективы //Кавказ и глобализация Том 6 (1). – 2012. – с.93-101; Кузнецов

V.Papava, B.Arveladze, T.Mibçuani, M.Tsereteli, K.Kakaçiya, Q.Marxuliya kimi gürcü alimləri tərəfindən problemin müxtəlif istiqamətlərinə dair maraqlı araşdırmalar aparılmışdır.[10]

ABŞ tədqiqatçıları S.F.Starr, S.E.Cornell, Böyük Britaniyadan J.Wheatley, S.Lussak, finlandiyalı K.J.Stormun əsərlərində Cənubi Qafqazda baş verən etnik proseslər, milli azlıqların sosial-iqtisadi problemləri, o cümlədən Gürcüstanda yaşayan azərbaycanlılara yönəlmiş ayrı-seçkilik siyasəti kimi mövzulara toxunulur.[11]

Bütövlükdə, tədqiq olunan problemlə bağlı elmi ədəbiyyatların təhlili göstərir ki, onun müxtəlif aspektləri Azərbaycan və xarici ölkə tədqiqatçıları tərəfindən tərəfindən müəyyən qədər işlənilmişdir. Bununla belə, baxılan problem Azərbaycan siyasi elmində sistemli və kompleks şəkildə araşdırılmamışdır. Bu da təqdim olunan dissertasiya işinin elmi ədəbiyyatda bu sahədə mövcud boşluğun aradan qaldırılmasında müəyyən addım kimi dəyərləndirilməsinə imkan verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan – Gürcüstan münasibətlərinin qurulması, inkişafı və perspektivləri təşkil edir.Tədqiqatın predmetini iki dövlət arasında diplomatik-siyasi münasibətlər, ticarət-iqtisadi, mədəni-humanitar əlaqələr, enerji layihələri, turizm sahəsində əməkdaşlıq, Cənubi Qafqazdakı münaqişələrə tərəflərin münasibəti təşkil edir.

---

O. Война за Карабах 2020 года: год спустя / О. Кузнецов. Центр анализа международных отношений Баку: Центр Анализа Международных Отношений. – 2021. – 36 с. və b.

[10] Папава В. Сравнительние преимущества стран центрального Кавказа: потенциальные, реализованные и упущенные возможности // Кавказ и глобализация Том 1 (1.) –2006. – с.99-109; Мархулия Г. Армяно – грузинские взаимоотношения в 1918-1920 годах / Г. Мархулия. – Тибилиси: – 2007. – 257с.;. və b.

[11] The Baku-Tbilisi-Ceyhan Pipeline: Oil Window to the West / ed. S. F. Starr, S.E.Cornell – Sweden: – 2005. – 152 p.; Samuel Lussac, The Baku – Tbilisi – Kars railroad and its geopolitical implications for the South Caucasus // Caucasian Review of International Affairs, 2008, 2(4) – p. 212-224; Jonathan, W. The Integration of National Minorities in the Samtskhe-Javakheti and Kvemo Kartli provinces of Georgia, Five Years into the Presidency of Mikheil Saakashvili / W. Jonathan. – European Centre for Minority Issues, – 2009. – 57 p. və b.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi Azərbaycan Respublikası – Gürcüstan diplomatik-siyasi münasibətlərinin qurulması və inkişafı, digər sahələrdə iki ölkə arasındakı əməkdaşlığın əsas istiqamətləri, mövcud vəziyyəti və perspektivləri, Cənubi Qafqazdakı münaqişələrə tərəflərin münasibəti və onların çoxtərəfli formatda əməkdaşlığının elmi əsaslarla tədqiq edilməsidir.

Qarşıya qoyulan məqsədə nail olmaqdan ötrü aşağıdakı konkret məsələlərin araşdırılması **vəzifə** olaraq müəyyənləşdirilmişdir:

- Qarşılıqlı münasibətləri şərtləndilən amillərin araşdırılması;
- Azərbaycan Respublikası – Gürcüstan diplomatik-siyasi münasibətlərin xarakterinin müəyyənləşdirilməsi və cari vəziyyətinin təhlil edilməsi;
- Ticarət-iqtisadi, enerji-kommunikasiya, humanitar əməkdaşlığın müxtəlif istiqamətlərində mövcud vəziyyətin və perspektivlərin dəyərləndirilməsi;
- Beynəlxalq layihələrin reallaşdırılmasında Azərbaycanın və Gürcüstanın rolunun müəyyən edilməsi;
- Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Qarabağ münaqişəsinə münasibətdə Gürcüstanın, habelə Abxaziya və Cənubi Osetiya (Tsxinvali) münaqişələrinə münasibətdə Azərbaycanın mövqeyinin təhlil edilməsi;
- 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda ikitərəfli və çoxtərəfli münasibətlərin araşdırılması;
- Çoxtərəfli formatda əməkdaşlığın başlıca formalarının ortaya çıxarılması.

**Tədqiqat metodları.** Dissertasiya işi siyasi tədqiqatlarda qəbul edilmiş müvafiq metodlardan istifadə edilməklə yazılmışdır. Dövlətlərarası münasibətlər sahəsində elmi tədqiqatların geniş spektri nəzərə alınaraq problemlərin tədqiqində ümummə ntiqi və tarixi-müqayisəli metodlardan istifadə edilmiş, fakt və materiallar toplanılaraq öyrənilmiş, sistemləşdirilmiş, onların arasında qanunauyğun əlaqələr müəyyənləşdirilmişdir. Habelə ivent-analiz, müqayisəli politoloji təhlil, sənədlərin təhlili və digər elmi

metodlarından geniş istifadə edilməklə ümumiləşdirilmiş elmi nəticələr əldə edilmiş, praktiki tövsiyələr irəli sürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Problemin tədqiqində konkret olaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Müasir şəraitdə xarici siyasət xəttinin müəyyən edilməsində qonşu dövlətlərlə qarşılıqlı faydalı əlaqələrin qurulması prioritet istiqamətlərdən biridir;
- Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin tarixi, siyasi, iqtisadi, hüquqi, mədəni, humanitar və s. əsaslara malik olması, Gürcüstanda yaşayan azərbaycanlılar, Azərbaycanda yaşayan gürcü mənşəli əhali qarşılıqlı münasibətləri şərtləndirən əsas amillərdir;
- Regiondakı münaqişələr təkcə Azərbayan və Gürcüstanın deyil, eləcə də bütün regionun inkişafına mənfi təsir göstərmişdir;
- Həyata keçirilən beynəlxalq və regional layihələr Azərbaycan Respublikası və Gürcüstanı iqtisadi böhrandan çıxararaq sürətli inkişafına səbəb olan əsas amil olmaqla yanaşı, ölkələrarası münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsində başlıca rol oynamışdır;
- Strateji tərəfdaşlar kimi Azərbaycan Respublikası ilə Gürcüstan arasındakı münasibətlər hər iki ölkənin geosiyasi, geostrateji və geoiqtisadi əhəmiyyətini daha da artırmışdır;
- Azərbaycan Respublikası və Gürcüstanın siyasi və iqtisadi gücünün artması, ikitərəfli münasibətlərin yüksək inkişaf səviyyəsi, beynəlxalq layihələrin icrası Cənubi Qafqaz regionunun dünya siyasəti üçün əhəmiyyətli regionlardan birinə çevrilməsinə şərait yaratmışdır;
- 44 günlük müharibədə Azərbaycanın qazandığı qələbədən sonra regionda yaranmış yeni geosiyasi reallıqlar və Azərbaycan – Rusiya – Ermənistan arasında imzalanmış üçtərəfli bəyanat Cənubi Qafqazın daha geniş nəqliyyat-kommunikasiya qoşvağına çerviləcəyindən xəbər verir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi hər şeydən əvvəl, problemin qoyuluşu ilə müəyyən olunur. Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin yaradılması, inkişafı və

perspektivləri Azərbaycan siyasi elmində ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir.

Tədqiqatın elmi yeniliyini konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- Azərbaycan Respublikası – Gürcüstan münasibətlərini şərtləndirən amillər sistemli təhlil olunmuş, ikitərəfli münasibətləri coğrafi mövqe, tarixi bağlılıq, ümumi maraqlar, siyasi-diplomatik, ticarət-iqtisadi, mədəni-humanitar, turizm əlaqələri, çoxtərəfli formatda əməkdaşlıq, Gürcüstandakı azərbaycanlılar və Azərbaycandakı gürcü mənşəli əhalinin şərtləndirdiyi göstərilmişdir;
- Azərbaycan Respublikası – Gürcüstan diplomatik-siyasi münasibətlərinin qurulması və inkişaf dinamikası, xüsusiyyətləri müqayisəli-tarixi metod əsasında təhlil edilmiş, iki ölkə arasında dövlət müstəqilliyinin bərpasından etibarən qarşılıqlı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəldiyi arqumentli şəkildə əsaslandırılmışdır;
- Qlobal və regional layihələrin təşəbbüskarı və icraçısı kimi Azərbaycan Respublikasının oynadığı rol fakt və materiallar əsasında müqayisəli təhlil edilməklə araşdırılmış, həyata keçirilən layihələrin Cənubi Qafqaz regionunda sülhə, təhlükəsizliyə və inkişafa səbəb olmaqla yanaşı, Gürcüstanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadiyyatının böhrandan çıxarılmasında, əhalisinin sosial rifahının təmin edilməsində başlıca amillərdən biri olduğu açılıb göstərilmişdir;
- Ölkələrin dövlət müstəqilliklərinin bərpasından etibarən qurulan ikitərəfli ticarət-iqtisadi, elmi-texniki, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığın inkişaf dinamikası müqayisəli təhlil edilmiş, əməkdaşlığın genişləndirilməsi perspektivləri müəyyənləşdirilmiş, müvafiq sahələrdə işçi qrupların əməli fəaliyyəti, uğurlu sahələrdə təcrübə mübadiləsinin strateji tərəfdaşlığın dərinləşdirilməsində, problemlərin daha sürətli həllində səmərəli rol oynaması əsaslandırılmışdır;
- 44 günlük müharibədə Azərbaycanın parlaq qələbəsindən

sonra Azərbaycan və Türkiyə tərəfindən irəli sürülən 3+3 əməkdaşlıq formatının məqsədləri təhlil edilmiş, bu formatın regionda sülhü və təhlükəsizliyi təmin etməklə yanaşı, Cənubi Qafqazı daha geniş qlobal nəqliyyat-kommunikasiya qovşağına çevirəcək, eyni zamanda Azərbaycanın Gürcüstandan tranzit asılılığını azaldacağı nəticəsinə gəlinmişdir;

- Abxaziya və Cənubi Osetiya (Tsxinvali) münaqişələrinə münasibətdə Azərbaycanın mövqeyi tədqiq edilmiş, Azərbaycan Respublikasının Gürcüstanın ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qətiyyətlə, birmənalı dəstək göstərdiyi, istər ikitərəfli, istərsə də çoxtərəfli görüşlərdə bu mövqeyini aydın şəkildə ortaya qoyduğu ifadə edilmişdir. Bu münaqişələrin kəskin mərhələlərində Gürcüstanda yaşayan azərbaycanlıların və ermənilərin fəaliyyəti müqayisəli təhlil edilmiş, faktlar və etibarlı mənbələr əsasında tutduqları mövqe qiymətləndirilmiş, ermənilərdən fərqli olaraq azərbaycanlıların daim Gürcüstanın ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda səy göstərdiyi vurğulanmışdır;
- Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Qarabağ münaqişəsinin davam etdiyi 30 il ərzində Gürcüstanın mövqeyi rəsmi sənədlər əsasında öyrənilmiş, Gürcüstanın ikitərəfli görüşlərdə və beynəlxalq qurumların fəaliyyətində Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə etdiyi, lakin konkret şəkildə Ermənistanı işğalçı olaraq qiymətləndirmədiyi, tarazlaşdırılmış siyasət yürüdərək hər iki qonşusuna qarşı bitərəf mövqe tutduğu, Tovuz hadisələri, 44 günlük müharibə və postmüharibə dövründə isə özünü etibarlı tərəfdaş kimi apardığı, ərazisindən silah daşınmasını qadağan etdiyi, vasitəçilik missiyası çərçivəsində müəyyən işlər gördüyü göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən və elmi-nəzəri müddəalarından aşağıdakı sahələrdə istifadə oluna bilər:

- Problemin bu və ya digər tərəflərinə dair gələcək tədqiqat işlərinin aparılmasında,

- Ümumiləşdirilmiş əsərlərin, dərslik və dərs vəsaitlərinin hazırlanmasında;
- Ali məktəblərdə mühazirələrin oxunmasında, seminarların, elmi simpozium və konfransların keçirilməsində;
- Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin təbliğində;
- Müvafiq xarici siyasət konsepsiyalarının işlənilməsində;
- Xarici siyasət üçün analitik məlumatların hazırlanmasında;
- Regional əməkdaşlıq proqramlarının tərtibində;
- Diaspora fəaliyyətinin səmərəli təşkilində.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusuna dair müəllif Azərbaycanda və xarici ölkələrdə keçirilmiş beynəlxalq və respublika əhəmiyyətli simpozium, konfrans və forumlarda məruzələrlə çıxış etmişdir. İşinin əsas müddəaları və nəticələri iddiaçının Azərbaycan, ingilis, türk və rus dillərində yazılmış, Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və b. xarici ölkələrdə nəşr edilmiş 24 elmi əsərində (xarici ölkələrdə 7) əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

**İşin strukturu və həcmi.** Dissertasiya işi giriş, 9 paraqrafa bölünmüş üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Ümumilikdə 283 min 486 işarədən (ədəbiyyat siyahısı istisna olmaqla) ibarət olan dissertasiya işinin birinci fəsli 102 min 760, ikinci fəsli 83 min 689, üçüncü fəsli 55 min 294 işarədən ibarətdir.

## DİSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə dərəcəsi təhlil edilmiş, mənbə bazası, məqsəd və vəzifələri müdafiə üçün irəli sürülmüş əsas müddəalar, istifadə edilən metodlar, elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilmiş, işin aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan Respublikası – Gürcüstan diplomatik-siyasi münasibətlərinin qurulması və**

**inkişaf dinamikası”** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. **“Qarşılıqlı münasibətləri şərtləndirən amillər”** adlanan birinci paraqrafda Azərbaycan – Gürcüstan münasibətlərinin qədim tarixə söykəndiyi, uzun illər boyu Azərbaycan və gürcü siyasi qurumları və dövlətlərinin eyni regionda mövcud olduğu, ortaq tarixin parçalarını təşkil etdiyi, müxtəlif sahələrdə sıx əlaqələr quraraq əməkdaşlıq etdiyi, münasibətləri şərtləndirən bir sıra amillər olduğu yazılmışdır. Aparılan təhlillər nəticəsində, ikitərəfli münasibətləri şərtləndirən əsas amillərin tarixi bağlılıq, coğrafi mövqe, həmsərhəd olduqları dövlətlər, dövlətçilik tarixlərində baş vermiş oxşar proseslər, enerji layihələri, ticarət-iqtisadi, nəqliyyat-kommunikasiya, mədəni-humanitar əlaqələr, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, strateji tərəfdaşlıq, Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcü mənşəli əhali olduğu yazılmış, vurğulanmışdır ki, bu amillər və ümumi maraqlar dövlət müstəqilliyinin bərpasından sonra Gürcüstanla faydalı qarşılıqlı əməkdaşlığın qurulmasını Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsində başlıca rol oynamışdır. Paraqrafda həmçinin, iki dövlətin ilk dəfə müstəqillik əldə etdiyi 1918-ci ildən etibarən diplomatik-siyasi münasibətlərin xarakteri baxımından Azərbaycan – Gürcüstan əlaqələrinin altı mərhələsi fərqləndirilmiş, onların əsas xüsusiyyətləri, hər mərhələdə münasibətlərə təsir edən əsas hadisələr tarixi metoda əsaslanaraq tədqiq edilmişdir. Bu paraqrafda ikitərəfli münasibətlərin mürəkkəb xarakter daşısa da uğurlu inkişaf yolu keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanmışdır.

Fəslin **“Diplomatik-siyasi münasibətlərin qurulması və inkişafı”** adlı ikinci paraqrafında iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından etibarən diplomatik-siyasi münasibətlərin keçdiyi yol, bu münasibətlərin müqavilə-hüquq bazası, qarşılıqlı səfərlər və görüşlər, əldə edilmiş nəticələr araşdırılmışdır. Paraqrafda XX əsrin sonunda iki ölkədə cərəyan etmiş oxşar hadisələr, diplomatik-siyasi əlaqələrin qurulması ərəfəsində baş vermiş siyasi proseslər nəzərdən keçirilmişdir. Təhlillər nəticəsində diplomatik-siyasi münasibətlərin üç mərhələsi – münasibətlərin

qurulması, möhkəmləndirilməsi və inkişafı, strateji tərəfdaşlıq mərhələləri fərqləndirilmişdir. Yazılmışdır ki, müstəqillik əldə edilən ilk illərdə Azərbaycan – Gürcüstan münasibətləri arzu edilən səviyyədə olmamış, Gürcüstanda hakimiyyətdə olan Z.Qamsaxurdiyanın başçılıq etdiyi qatı-milliyyətçi qüvvələrin ayrı-seçkilik siyasəti, Azərbaycanda Ermənistanın işğalı ilə bağlı ağır siyasi və iqtisadi vəziyyət, daxili hərc-mərclik və hakimiyyət uğrunda mübarizə ikitərəfli münasibətlərin qurulmasını ləngitməklə yanaşı, azərbaycanlılara qarşı yönəlmiş hərəkatın qarşısının alınması istiqamətində effektiv addımlar atılmasını da əngəlləmişdir.

Gürcüstanda 1992-ci ildə hakimiyyətə gəlmiş Eduard Şevardnadzenin mövqeyi öz sələfinin mövqeyindən kəskin fərqlənmiş, Azərbaycan ilə normal əlaqələrin yaradılmasında maraqlı olmuşdur. 1993-cü ilin fevralın 2-də E.Şevardnadzenin Azərbaycana səfəri zamanı imzalanmış bir sıra sənədlər ölkələr arası münasibətlərin müqavilə-hüquq bazasının təməlini qoymuşdur.

İki ölkə arasındakı münasibətlərdə dönüş Azərbaycanda Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başlanmışdır. İki ölkə arasındakı münasibətlərin inkişaf etdirilməsində Prezident Heydər Əliyevin 1996-cı ilin martın 8-də Gürcüstana səfəri mühüm rol oynamışdır. Bu səfərlə başlamış diplomatik-siyasi münasibətlərin inkişafının ikinci mərhələsi ikitərəfli münasibətlərin qurulması və genişləndirilməsi baxımından olduqca əhəmiyyətli hesab edilə bilər. Bu mərhələ birbaşa Ümummilli lider Heydər Əliyevin xarici siyasət strategiyasının prioritet istiqamətlərindən biri üzrə fəaliyyəti ilə bağlı olmuş, ölkələr arasında bağlanılmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhhəmləndirilməsi haqqında müqavilə, neft və qazın tranzitinə imkan yaradan sazişlər, ikitərəfli münasibətlərin müxtəlif sahələrini əhatə edən sənədlər Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin möhkəmləndirilməsinə və genişləndirilməsinə səbəb olmuşdur.

Dissertasiyada yazılmışdır ki, İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Azərbaycan – Gürcüstan münasibətləri ölkələr arasındakı əlaqələr nəinki qorunub

saxlanılmış, daha da inkişaf etdirilərək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmışdır. Dissertasiyanın bu paraqrafında qeyd olunmuşdur ki, müstəqilliyin ilk illərində ikitərəfli münasibətlərin inkişafı üçün səy göstərilirdisə, sonrakı illər Azərbaycan – Gürcüstan – Türkiyə üçtərəfli format çərçivəsində əməkdaşlıq daha aktual olmuşdur. Zaman-zaman xarici qüvvələrin də təsiri ilə, xüsusilə də 2013-cü ildə Gürcüstanda baş vermiş hakimiyyət dəyişikliyindən sonra, əlaqələrdə soyuqluq və büdrəmələr müşahidə edilsə də, hər iki dövlət münasibətlərin qorunub-saxlanılmasının nə qədər vacib olduğunu yetərincə qiymətləndirə bilmiş, problemlərin aradan qaldırılması üçün əməli addımlar atmış, əməkdaşlığın müsbət dinamikasının dayanıqlığı üçün əhəmiyyətli işlər görmüşdür.

Fəslin **"Təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq"** adlanan üçüncü paraqrafında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın formaları, hüquq-müqavilə bazası, qarşılıqlı səfərlər, keçirilmiş tədbirlər araşdırılmışdır. Dissertasiya işində yazılmışdır ki, dövlət başçılarının bu sahədəki fəaliyyətləri, müvafiq sahələrdəki səlahiyyətli şəxslərin görüşləri, kiber-təhlükəsizlik, enerji və informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq, xüsusi təyinatlı qüvvələrin gücləndirilməsi, təlimlərin keçirilməsi, hava məkanının təhlükəsizliyi və s. müvafiq sahədə əməkdaşlığın əsas formalarıdır. Bu sahələrin inkişafı hər iki dövlətin milli təhlükəsizliyinin və sərhədlərinin toxunulmazlığının möhkəmləndirilməsi, regional təhlükəsizliyə nail olunması, qlobal layihələrin təhlükəsizliyin təmin edilməsi, beynəlxalq təhlükəsizliyə töhfə verilməsi baxımından olduqca əhəmiyyətlidir. Hər iki dövlət milli təhlükəsizliyin, sərhədlərin toxunulmazlığının təmin olunması, enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi üçün təhlükəsizlik və müdafiə sahəsində münasibətlərin qorunub saxlanması və möhkəmləndirilməsinin labüdlüyünün fərqindədir, bu məqsədlə bir sıra layihələr həyata keçirilir.

Bu paraqrafda müdafiə sahəsində ikitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan – Türkiyə – Gürcüstan üçtərəfli əməkdaşlığının da uğurla həyata keçirildiyi, Azərbaycan, Türkiyə və Gürcüstanın oxşar təhlükəsizlik problemləri müdafiə sahəsində əməkdaşlığı

şərtləndirən amillərdən hesab edildiyi yazılmışdır. Qeyd edilmişdir ki, bu sahədə görülən işlər heç bir halda üçüncü ölkələrə qarşı yönəldilməmişdir, əksinə regional təhlükəsizliyin möhkəmləndirilməsinin birbaşa təzahürüdür. O da vurğulanmışdır ki, müdafiə sahəsində qurulan ikitərəfli və Azərbaycan – Türkiyə – Gürcüstan üçtərəfli əməkdaşlığı həm 44 günlük müharibə ərəfəsində, həm müharibə zamanı, həm də postmüharibə dövründə Gürcüstanın mövqeyinin formalaşmasına təsir edən amillərdən olmuşdur.

**“İki ölkə arasında işgüzar əməkdaşlığın istiqamətləri, mövcud vəziyyəti və perspektivləri”** adlanan ikinci fəsil üç paraqrafdan ibarətdir. **“Ticarət-iqtisadi əməkdaşlığın başlıca formaları və həyata keçirilməsi”** adlanan birinci paraqrafda dövlət müstəqilliyininin bərpasından etibarən iki dövlət arasında ticarət-iqtisadi əməkdaşlığın qurulması və inkişafına xidmət edən müqavilə-hüquq bazası, dövlət başçıları və digər səlahiyyətli şəxslər arasındakı görüşlər, əldə edilən razılaşmalar, birgə iqtisadi komissiyanın fəaliyyəti, birgə tədbirlər və s. araşdırılmışdır. Aydın olmuşdur ki,  Azərbaycan və Gürcüstan güclü ticarət tərəfdaşlarıdır. Gürcüstan Azərbaycan Respublikasının əsas 12 ticarət tərəfdaşından biridir.  Gürcüstanın bütün xarici ticarət dövriyyəsində  10 faiz paya sahib olan Azərbaycan Respublikası isə bu ölkənin ikinci ticarət tərəfdaşı və əsas investorlardan biridir. Bu paraqrafda Azərbaycan Respublikası – Gürcüstan arasındakı ticarət dövriyyəsinin statistik göstəriciləri təhlil edilərək əməkdaşlığın dinamikası aydınlaşdırılmışdır. Vurğulanmışdır ki, təbii sərvətlər baxımından kasıb sayılan Gürcüstan, Azərbaycan ilə birlikdə həyata keçirdiyi layihələr hesabına iqtisadi böhrandan çıxmış, investorların maraq dairəsinə çevrilməyi bacarmış, qlobal layihələrin həyata keçirilməsində tranzit ölkə statusunu qazanmaqla, əhalisinin məşğulluq səviyyəsi yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına nail olmuşdur. Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər də məhz Azərbaycan şirkətləridir. Bunlarla yanaşı müstəqillik əldə edilən ilk dövrlərdən etibarən Azərbaycan dövləti tərəfindən Gürcüstana güzəştlər, yardımlar edilmiş, kreditlər ayrılmışdır. Bütün bunları nəzərə alaraq Gürcüstan üçün

Azərbaycan ilə qurulan ticarət-iqtisadi münasibətlərin olduqca böyük əhəmiyyətə malik olduğunu söyləmək mümkündür.

Dissertasiya işində Gürcüstanla qurulan ticarət-iqtisadi əməkdaşlıq həm də Azərbaycan üçün əhəmiyyətli olduğu yazılmışdır. Diqqətə çatdırılmışdır ki, ölkə Azərbaycanın sərbəst çıxa bildiyi bazarlardan biridir. Tranzit ölkə kimi Gürcüstan, Azərbaycanın xarici ticarət konsepsiyasında əhəmiyyətli ölkələr sırasındadır.

Fəslin **"Enerji və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlıq"** adlanan ikinci paraqrafında Azərbaycan Respublikası – Gürcüstan enerji və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın müqavilə-hüquq bazası, bu sahədə əldə edilən razılaşmalar və həyata keçirilən layihələr, enerji amilinin iki dövlət arasındakı həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrə təsiri araşdırılmışdır. İstər dövlət müstəqilliyinin əldə edildiyi XX əsrin əvvəllərində, istərsə də müasir dövrdə diplomatik – siyasi əlaqələrin qurulmasından etibarən enerji amilinin dövlətlərarası münasibətlərin inkişafına təkan verən başlıca amil olduğu qeyd edilmişdir. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları Rusiya və İran kimi region nəhənglərindən asılı olmadan Gürcüstan ərazisindən tranzit edilməklə ilk dəfə Qərbə yönəlmişdir. Bu layihələr Azərbaycanın, eləcə də Gürcüstanın müstəqilliyinin və iqtisadi inkişafının təminatçısı olmuşdur. Dissertasiya işində yazılmışdır ki, Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq Gürcüstana bir sıra üstünlüklər qazandırmışdır. Belə ki, Gürcüstanın müstəqilliyinin möhkəmləndirilməsində rol oynayan ən mühüm amillərdən biri olmuş, bu ölkənin enerji təhlükəsizliyini təmin etmiş, iqtisadiyyatının inkişafına şərait yaratmış, sosial problemlərin həllinə kömək etmiş, yeni iş yerlərinin açılmasında rol oynamış, xarici ölkələrin Gürcüstana marağının artmasına səbəb olmuşdur.

Bu paraqrafda müstəqilliyin bərpasından sonra iki ölkə arasındakı nəqliyyat-kommunikasiya səhəsində əməkdaşlığın qurulması üçün əhəmiyyətli addımlar atıldığı, həm həyata keçirilən qlobal proqramların iştirakçısı, həm də regional layihələrin təşəbbüskarı və əsas oyunçusu kimi nəhəng işlər görüldüyü yazılmışdır. Qeyd edilmişdir ki, görülən işlər və gələcəkdə həyata

keçirilməsi nəzərdə tutulan layihələr iki dövləti, ümumilikdə Cənubi Qafqaz regionunu dünyanın əhəmiyyətli nəqliyyat-kommunikasiya qovşaqlarından birinə çevirməkdədir.

Dissertasiyada ölkələrin iqtisadi inkişafı üçün enerji və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın qorunub saxlanılması və genişləndirilməsi olduqca əhəmiyyətli olduğu barədə nəticəyə gəlinmiş, bütün sahələrdə münasibətlərin perspektivlərinin enerji və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın gələcək inkişaf dinamikası ilə bağlı olacağının ehtimal edildiyi yazılmışdır.

İkinci fəslin **"Təhsil, mədəniyyət və turizm sahələrində əməkdaşlıq"** adlanan üçüncü paraqrafı təhsil, mədəni-humanitar və turizm sahələrində ölkələrarası əməkdaşlığın hüquq-müqavilə bazasının, dövlət başçılarının və digər səlahiyyətli şəxslərin səfər və görüşlərinin bu sahənin inkişafındakı rolunun, həyata keçirilən ikitərəfli və çoxtərəfli tədbirlərin araşdırılmasına həsr edilmişdir. Paraqrafda habelə, müxtəlif illərə aid statistik hesabatlar təhlil edilərək dövlət müstəqilliyinin bərpasından etibarən turizm sahəsindəki münasibətlərin dinamikası, əldə edilən uğurlar və çatışmamazlıqlar, əlaqələrin inkişafının ölkələr üçün faydaları araşdırılmışdır.

Dissertasiya işində müstəqilliyin bərpasından etibarən təhsil sahəsində uğurlu əməkdaşlığın mövcud olduğu, bu məktəblərin sayının azalması, pedoqoji heyətin yaş həddinin yuxarı olması, gənc kadrların çatışmazlığı və sayının aşağı düşməsi kimi problemlərin də olduğu ortaya çıxarılmışdır. Yazılmışdır ki, Gürcüstanda təhsil almış, Azərbaycan dili ilə yanaşı, gürcü dilini də yüksək səviyyədə bilən gənc kadrları bu sahəyə cəlb etməklə problemlərin müəyyən mənada aradan qaldırılmasına nail olmaq olar.

Araşdırmada Azərbaycan – Gürcüstan mədəni-humanitar əməkdaşlığının olduqca dərin köklərə malik olduğu və müasir dövrdə genişləndirilərək inkişaf etdirildiyi vurğulanmışdır. Mədəni əlaqələrin inkişafına yön verən əsas amillər kimi dövlət başçılarının və digər rəsmi şəxslərin səfərləri və görüşləri, beynəlxalq qurumlar çərçivəsində keçirilmiş görüşlər, tədbirlər, yubileylər, bayramlar, mədəniyyət mərkəzləri, Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram

Teatrı, Qax Dövlət Gürcü Dram Teatrı, Gürcüstanda yaşamış Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin ev muzeyləri, keçirilmiş mədəniyyət günləri, festivallar, müsabiqələr, konfranslar, konsertlər, sərgilər və s. sadalanmışdır.

Bu paraqrafda yazılmışdır ki, hər iki dövlət mədəni əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. İntensiv görüşlər, mədəniyyət tədbirləri də bunu sübut edir. Lakin bu sahədə də, problemlər mövcuddur. Müstəqilliyin bərpasından indiyədək ötən illər ərzindən Gürcüstan dövləti tərəfindən bu ölkədə mövcud olan tarixi mədəni obyektlərin təmiri və bərpası üçün vəsait ayrılmamışdır. Azərbaycan mənşəli toponimlərin və hidronimlərin gürcü mənşəli adlarla əvəz edilmişdir. Bu adlar XX əsrin əvvəllərindən bu yana dəyişdirilməyə başlanmış, bu proses müstəqilliyin bərpasından sonra daha da sürətlənmişdir.

Dissertasiya işinin "**Çoxtərəfli formatda Azərbaycan – Gürcüstan münasibətləri və Cənubi Qafqazdakı münaqişələrə tərəflərin baxışı"** adlanan üçüncü fəsli üç paraqrafdan ibarətdir. Fəslin birinci – **"Çoxtərəfli formatda əməkdaşlıq"** adlanan paraqrafında hər iki ölkənin də üzv olduğu beynəlxalq və regional təşkilatlar, bu təşkilatlar çərçivəsində keçirilmş ikitərəfli görüşlər, Azərbaycan –Türkiyə – Gürcüstan üçtərəfli əməkdaşlığı, 44 günlük müharibədə Azərbaycanın qələbəsindən sonra yeni yaranmış geosiyasi reallıqlar fonunda Azərbaycan və Türkiyə tərəfindən irəli sürülmüş yeni əməkdaşlıq platforması olan 3+3 formatı, regionda marağı olan aktorlardan olan Çinin və Fransanın iki dövlətə münasibətdə mövqeyi təhlil edilmişdir. Vurğulanmışdır ki, ikitərəfli əlaqələrin inkişafı baxımından beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsi olduqca əhəmiyyətlidir. Beynəlxalq qurumlar çərçivəsində qərarların qəbul edilməsi zamanı Azərbaycan Respublikası və Gürcüstanın bir-birini dəstəkləməsi hər iki dövlətin mövqeyinin gücləndirmişdir. Beynəlxalq kürsülərdə bu gücdən istifadə etmək hər iki dövlətin mənafeyinə uyğundur. Yazılmışdır ki, Azərbaycan – Gürcüstan – Türkiyə əməkdaşlığı regionda sülhün və sabitliyin qorunmasına, dövlətlərin siyasi və iqtisadi müstəqilliklərinin möhkəmləndirilməsinə, rifah

səviyyəsinin artırılmasına, eyni zamanda xarici şirkətlərin və investorların təhlükəsiz fəaliyyətinə xidmət edir.

Paraqrafda 3+3 formatının Zəngəzur dəhlizin açılması ilə birlikdə Cənubi Qafqaz ölkələri – Azərbaycan, Gürcüstan və Ermənistan ilə qonşuları olan Türkiyə, İran, Rusiya əməkdaşlığının nəzərdə tutulduğu qeyd edilmiş, bu əməkdaşlıq platformasının regionda sülh və əmin-amanlığın bərqərar olmasına, siyasi sabitliyə, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya və digər sahələrdə sürətli inkişafa kömək edə biləcəyi nəticəsinə gəlinmişdir. Həmçinin, Rusiya ilə mövcud problemləri səbəbindən Gürcüstan bu platformaya qoşulmayacağını açıqlasa da, gələcəkdə formatın həyata keçiriləcəyinin də istisna edilmədiyi, Gürcüstanın iştirakının ona ərazi problemlərinin həlli üçün yeni müzakirə platforması da qazandıracağı, üstəlik proses Gürcüstan kənarda qalmaqla həyata keçirilməyə başlanarsa, qonşu dövlətin əhəmiyyətli iqtisadi gəlirdən məhrum ola biləcəyinin ehtimal olunduğu yazılmışdır.

Fəslin **"Abxaziya və Cənubi Osetiya (Tsxinvali) münaqişələrində Azərbaycan Respublikasının mövqeyi"** adlanan ikinci paraqrafında Gürcüstanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, separatizmə qarşı mübarizə məsələlərində Azərbaycanın mövqeyi araşdırılmışdır. Dissertasiyada yazılmışdır ki, istər ikitərəfli, istərsə də çoxtərəfli görüşlərdə Azərbaycan daim Gürcüstanın ərazi bütövlüyünü müdafiə etmiş, həm nəzəri, həm də əməli cəhətdən etibarlı və sadiq qonşu kimi özünü təsdiqləmişdir. Həmçinin, Azərbaycanın dövlət və hökumət başçılarının, səlahiyyətli şəxslərin çıxışlarında daim Gürcüstanın dövlət müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına, separatizmə qarşı mübarizəsinə dəstək verilməsi, beynəlxalq kürsülərdə Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyinin Azərbaycan tərəfindən qətiyyətlə müdafiə olunması və bu məsələdə qəbul edilən sənədlərin lehinə səs verilməsi, 2008-ci ildə Gürcüstanda baş vermiş enerji böhranı zamanı bu ölkənin Azərbaycan tərəfindən elektrik enerjisi, neft məhsulları və s. ilə təmin olunmasının onun dövlət müstəqilliyinin qorunub saxlanılmasında əsas rol oynayan amillərdən biri olması, müstəqilliyin bərpasından etibarən istər Azərbaycanın

karbohidrogen ehtiyatları hesabına həyata keçirilən layihələrin, istərsə də edilmiş yardımların və ayrılmış kreditlərin bu ölkənin iqtisadiyyatının böhrandan çıxarılmasında, separatçılıqla mübarizəsində böyük əhəmiyyət daşıması, həyata keçirilən layihələrin dünya ictimaiyyətinin diqqətini bu ölkəyə yönəltməklə Gürcüstanın təhlükəsizliyinin möhkəmləndirilməsi üçün şərait yaratması vurğulanmışdır.

Üçüncü fəslin üçüncü paraqrafı "**Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Qarabağ münaqişəsinə Gürcüstanın münasibəti"** adlanır. Bu paraqrafda yazılmışdır ki, Gürcüstan münaqişənin davam etdiyi 30 il ərzində rəsmi şəkildə bitərəf mövqeyini qorumuş, qonşusu olan hər iki dövlətə münasibətdə tarazlaşdırılmış bəyənatlar səsləndirmiş, Ermənistanı işğalçı adlandırmasa da, Azərbaycanın ərazi bütövlüyün təmin edilməsinin vacibliyini dəfələrlə qeyd etmişdir. Belə ki, 1996-cı ildə dövlət başçıları tərəfindən bağlanılmış "Tbilisi Bəyannaməsi"ndə, 2000-ci ilin martın 22-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze tərəfindən imzalanmış birgə bəyanatda, 2004-cü il martın 4-də Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Gürcüstan Prezidenti Mixeil Saakaşvili arasında imzalanmış birgə bəyannamədə, 2015-ci il noyabrın 5-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Gürcüstan Prezidenti Georgi Marqvelaşvili arasında imzalanmış birgə bəyannamədə və digər bir sıra sənədlərdə tərəflərin bir-birilərinin sərhədlərinin toxunulmazlığına və suverenliyinə hörmət etdikləri, iki dövlətin ərazi bütövlüyünün regionda sülhün qarantı olduğu ifadə olunmuşdu.

2020-ci il iyulun 12-dən başlayan "Tovuz hadisələri" zamanı və Vətən müharibəsinə qədər olan dövrdə isə Gürcüstan özünü etibarlı tərəfdaş kimi aparmış, ərazindən silah daşınmasına icazə verməmişdir. 44 günlük müharibənin ilk günlərindən etibarən qonşu dövlət münaqişə dövrü boyunca ortaya qoyduğu bitərəf mövqeyə sadiq qalmış və ərazisindən istənilən dövlət tərəfindən hərbi təyinatlı yüklərin daşınmasına qadağa

qoymuşdur. Bu addım ilə Gürcüstan ərazisi tranzit kimi istifadə edilməklə Ermənistanın əsas hərbi sursat tədarükçüsü olan Rusiya ilə hava və quru əlaqəsi kəsilmişdir. Müharibə günlərində, paytaxt Tiflisdəki "Sülh" körpüsü və televiziya qülləsi Azərbaycan bayrağının rənglərində işıqlandırılmışdır. Postmüharibə dövründə də Gürcüstanın öz rəsmi mövqeyinə sadiq qalmış, ərazisindən hərbi təyinatlı yüklərin daşınmasına icazə vermədiyi ortaya çıxmışdır. Həmçinin Gürcüstan regionda münasibətlərin tənzimlənməsi üçün fəaliyyət göstərmiş, vasitəçilik cəhdlərinə də əl atmış, bu nöqteyi-nəzərdən müəyyən işlər də görmüşdür. Belə ki, Ağdam rayonunun mina xəritəsinin Azərbaycana verilməsini müqabilində 15 erməni əsir Azərbaycan – Gürcüstan sərhədində Gürcüstan nümayəndələrinin iştirakı ilə Ermənistana qaytarılmışdır.

Paraqrafda həmçinin, Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində Gürcüstanın qətiyyətli mövqe tutmasının Gürcüstan dövlətinin təhlükəzliyinin təminatı üçün olduqca vacib olduğu da vurğulanmış, Ermənistanın təkcə Azərbaycana deyil, həm də Gürcüstana qarşı ərazi iddialarının olduğu diqqətə çatdırılmışdır.

**Nəticədə** tədqiqatdan irəli gələn başlıca elmi-nəzəri müddəalar, ümumiləşdirmələr aparılmış və ikitərəfli münasibətlərin gələcək inkişafı üçün əsaslandırılmış praktik tövsiyələr irəli sürülmüşdür. Aparılmış tədqiqatlar Azərbaycan – Gürcüstan münasibətlərinin qədim tarixi köklərə malik olduğunu, mürəkkəb xarakterli olsa da uğurlu inkişaf yolu keçərək strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəldiyini təsdiq edir. Həyata keçirilən qlobal və regional layihələr, müxtəlif sahələri əhatə edən əməkdaşlığın müsbət dinamikası regionda bu əlaqələrin alternativinin olmadığının sübutudur. Tranzit ölkə kimi cəlb edildiyi layihələr, qoyulan investisiyalar Gürcüstanın gələcək inkişafında Azərbaycanın müstəsna rol oynayacağından xəbər verir. Bu rol qonşu ölkənin inkişafına töhfə verməklə yanaşı, həm də onun dövlət təhlükəsizliyini və beynəlxalq aləmdəki yerini möhkəmləndirməklə regional sabitliyin təmin olunmasına xidmət edir. Gürcüstanın 44 günlük müharibədən sonra regionda yaranan

geosiyasi reallıqlar fonunda Azərbaycanın gücünü və nüfuzunu yetərincə qiymətləndirməsi həm ikitərəfli münasibətlərin perspektivləri, həm də regional təhlükəsizliyin və inkişafın təmin edilməsi baxımından olduqca vacibdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Azərbaycan-Gürcüstan münasibətlərini şərtləndirən amillər //AMEA Qafqazşünaslıq İnstitutu, "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr", beynəlxalq elmi konfransın materialları, Bakı: - 2018, - s.75-83
2. Gürcüstandakı azərbaycanlılar // AMEA Qafqazşünaslıq İnstitutu, "Qafqazda deportasiyalar" respublika elmi konfransı, Bakı: - 2018, - s. 60-62
3. Energy projects connecting Azerbaijan and Georgia // В І С Н И К Київського національного університету імені Тараса Шевченка, - 2018, - s.30-35
4. Azərbaycan-Gürcüstan münasibətlərinin təşəkkülü// Azərbaycan Dillər Universiteti, "Beynəlxalq münasibətlərin aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, - 2019, - s. 411-413
5. Торгово-экономическое сотрудничество между Азербайджанской Республикой и Грузией // "Народы Кавказа в цивилизационном пространстве России", Материалы VI Международного форума историков-кавказоведов, - 2019, - с. 291-295.
6. Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Gürcüstanın münasibəti //AMEA Qafqazşünaslıq İnstitutu, Qafqazşünasların II beynəlxalq forumunun materialları, Bakı: - 2020, - s.52-56
7. Azərbaycan Respublikası və Gürcüstan arasında enerji sahəsində əlaqələr // AMEA Fəlsəfə İnstitutu, Elmi əsərlər, - 2019, №2(33), - s.87-97
8. Azərbaycan-Gürcüstan münasibətlərində Heydər Əliyevin rolu // AMEA Sosial elmlər, - 2019, №1, - s.149-153

9. Erməni terror təşkilatlarının Gürcüstandakı azərbaycanlılara qarşı fəaliyyəti //AMEA Qafqazşünaslıq İnstitutu, "Qafqazda terror" respublika elmi konfransının materialları, Bakı: - 2019, - s. 126-127
10. Gürcüstan:inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası Bakı:MTM İnnovation MMC, 2019, 320 s.
11. Azərbaycan Respublikası – Gürcüstan təhsil əlaqələri və Gürcüstandakı azərbaycandilli məktəblər // AMEA Rəyasət Heyəti, Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələri. Bakı, №3-4, - 2020,- s.101-108
12. Qarabağ münaqişəsinə münasibətdə Gürcüstanın mövqeyi // Karabagh International Congress of Modern Studies in Social and Human Sciences, -2021, - s.171-177
13. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti (XIX əsr – XXI əsrin əvvəlləri). Bakı: RS Poliqraf MMC, 2020, 606 s.
14. Azərbaycanlıların Gürcüstanın ictimai-siyasi həyatına inteqrasiya problemləri // AMEA Naxçıvan bölməsi, Elmi əsərlər №3 (XVI cild), - 2020, - s.55-60
15. Tarihten günümüze Borçalı bölgesinde Ermeni iddiaları ve bölgenin türk (Azerbaycanlı) ahalisi // Ermeni araştırmaları, - 2020, № 67, - s.115-136
16. Attempts by Armenia and related actors to disrupt Azerbaijan – Georgia relations // Review of Armenian Studies, - 2020, № 42, - s.123-149
17. Армения пытается подорвать азербайджано – грузинские отношения // İrs" Наследие, - 2021, №107, с.56-62
18. Azerbaijan-Turkey-Georgia trilateral cooperation as a factor of regional stability (View from Azerbaijan) // Qafqazşünaslıq elmi-nəzəri jurnal, - 2021, № 1 (2), - s.37-54
19. Təhsil sahəsində Azərbaycan – Gürcüstan əməkdaşlığı // Qafqazşünaslığın aktual problemləri (məqalələr toplusu), - 2021, s.197-216
20. Ermənilərin Gürcüstana qarşı ərazi iddiaları // Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə respublika elmi konfransının materialları, Bakı – 2021, s.123-125

21. Enerji layihələri Azərbaycan – Gürcüstan münasibətlərini şərtləndirən amil kimi // “Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi” respublika elmi konfransının materialları, Bakı – 2021, s.111-112
22. Gürcistan’da yaşayan Türkler (Azerbaycanlılar): sosyopolitik yaşamları ve sorunları // VIII Uluslararası türk dünyası araştırmaları sempozyumu, 2021, Türkiyə, s.195-204
23. Azerbaycan – Türkiye– Gürcistan işbirliği Güney Kafkasyanın Sabitleştirici faktor gibi // “Kafkasyada barış arayışları” uluslararası bilimsel sempozyum, Qori – 2021, –s. 125-141
24. Heydər Əliyevin banisi olduğu multikulturalizm modelinin Azərbaycan – Gürcüstan münasibətlərinə təsiri // “Heydər Əliyev: multukulturalizm və tolerantlıq ideologiyası” elmi konfransının materialları, Bakı –2021, s.56

Dissertasiyanın müdafiəsi “27” oktyabr 2022-ci il tarixində saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “26” sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.09.2022

Kağızın formatı: A5

Həcm: 43047

Tiraj: 100